# ♦ Poeziya



***Aləmzar SADİQQIZI***

* * *

Açıl, ey sabahım, doğ, ey Günəşim,
Bəlkə, bu gecədən sağ çıxa bilim...
Bu qədər ağrının, yükün altında
İlahi, səninçün darıxa bilim...

Bəlkə bu şeirlə qatıb başımı,
Dərdimi sabaha daşıya billəm.
Bu ağır gecədən səhərə çıxsam...
Bəlkə yüz il ömür yaşaya billəm...

Gözümdən sürüşən yuxularımı,
Kirpiyim yorulub saxlaya bilmir.
Ürəyim heyrətdən ağrımır daha,
Nə də ki, gözlərim ağlaya bilmir...

İlahi, bu dünya sənin əlində...
Bir az da bizləri güldür İlahi,
Bir az yaxşıları qoru əzizim,
Bir az ölməlini öldür, İlahi!

Yenə diz çökmüşəm sənin önündə,
Əl məndən, ətək də səndən, Sevdiyim!
Məni bu gecədən ötür sabaha...
Əfv səndən, günah da məndən, Sevdiyim!

* * *

Mən də belə yaşadım....
Çoxdan öldüyüm ömrü.
Ölə-ölə yaşadım...
Baxıb güldüyüm ömrü...

İstəyirsən soruş bir...
Xətrinə kim dəyməyib?
Kim söz verib gəlməyə,
Gedib bir də gəlməyib?

Soruş harda qalmısan...
İndi hansı yaşdasan?
Hər gün ayaqlanan qız...
Niyə belə başdasan?

Səni niyə atıblar...
Çox sevdiyin adamlar?
Niyə dərdindən ölür...
Sevmədiyin adamlar...

Bir də soruş gör hələ...
Ən gözəl günüm hansı...
Çaşıb əlimdəm salım,
Qoy qırılsın hamısı...

Ən gözəl gündən başlar...
Həyatın bitdiyi gün.
Bəlkə ən gözəl gündü...
Həyatdan getdiyin gün?

Nə söz-söhbətim bitər,
Nə də gözümün yaşı.
Nə boy verib böyüyər...
Yetim qalan on yaşı.

Bir soruş ki, ay Aləm...
Bu nə giley-güzardı?
Sənə bu haqsız ömrü...
Tanrı özümü yazdı?

## GƏLƏCƏYƏM...

*Qızıma....*

Bəlkə çiçək kimi, bəlkə quş kimi
Yenidən dünyaya qayıdacağam...

Yaşaya bilmədim adam dilində,
Sənlə quş dilində danışacağam...

Bəlkə çiçək kimi, bəlkə gül kimi
Evində səninçün çiçəkləyərəm...
Qonub pəncərənə göyərçin kimi...
Ruhumla qapını döyəcləyərəm.

Məni yaşamağa səsləyən quzum...
Ömrümü nə qədər baltalayan var!
Çəkdiyim zəhməti, verdiyim haqqı
Hər gün neçə dəfə tapdalayan var!

Bilmirəm qədərmi, yoxsa cəzamı...
Təpədən-dırnağa bu yanmaq nədir?
Mən ki, Tanrı üçün ölürəm hər gün...
Bu qədər yanğıda bu donmaq nədir?

Bəlkə də səninçün yaşadım ömrü,
Bəlkə sənin üçün dözürəm hələ...
Tanrının verdiyi ağrılarımı...
Bəlkə Tanrı üçün yazıram elə...?

Sən mənim nəfəsim, sən mənim canım..
Mən axı canımdan necə ayrılım?
Hər gün kərpic-kərpic sökülən ömrü...
Təzədən ömrümə necə qaytarım?

Yaşayım mən necə, ölüm mən necə...
Bu qədər yoxluğun, varın içində...
Aləmin ömrünü necə uzadım,
Bu qədər düşmənin, xarın içində?

* * *

Doğulmayan körpə kimidi bu sevda....
Adını bilmədiyim....
Bəmbəyaz gəlinlik kimi...
Qarımış qızların yuxusunda üşüyən....
Dadını bilmədiyim ömür kimi...
Şirin dadır içimdəki sızılar...
Bir az yazıq olurmuş sənsiz açan sabahlar...

Kor kimi tanış olmayan küçələrdə axtarmaqdı itirdiyini...
Sevgi qatılmamış yemək kimi dadsızdı ...
Qapıdan girməyən gözləmələr...
Sabah yazıb cibinə qoymadığım həsrətimdi
Əlindən ala bilmədiklərim...

Sabaha ümidi olmayan boşluqdu
sənsiz axşamlar....

Durna səsi eşitməyən şəhər kimidi...
gözləri çiçək görməyən kordu həyat...
Kiriməyən körpə kimidi sənsizliyi yaşamaq...
Gülən dünyaya göz yaşıdı baxmaq....
Səssiz-səmirsiz payıza getməkdi....
Sənsiz yaşadığım baharlar...

Dəli yağışlarda dəli kimi qışqırmaqdı....
Susa-susa bağırdıqların...
Çiskin yağışlarda həzin-həzin pıçıldamaqdı ağrılarını...
Tökülməkdi ömürdən sarı-sarı....
Köçüb getməkdi ölümlərə...
Sən olmayan payızlar.....

## ANAMA...

Qar yağır bu gecə, qar yağır, ana...
Qaçıb yuxularım sənin yanına.
Məzarın üşüyür, ruhum üşüyür...
Bir soyuq hopubdu sanki qanıma.

Boş qalıb bir küncdə yorğan-döşəyin,
Baxıram bağrımın başı sökülür.
Bayırda qurd kimi külək mələyir ...
Gözümdən yuxu yox, soyuq tökülür.

Evim də soyuqdur məzarın kimi...
Həsrətin oturub başımın üstə.
Mən evdə qoymuşam sənsizliyimi...
Səni axtarıram daşının üstə...

## BU GÜN SEVİNC ADLI QIZIN AD GÜNÜ...

Əlləri qoynunda ömür yolunda ...
Sevinc gözlərindən aralı düşüb.
Atmısan göylərə arzularını...
Gör necə yerlərə yaralı düşüb.

Eşqi çilik-çilik, bəxti yuxulu...
Gözündən dünyanın dərdi süzülür.
Naz, qəmzə içində süzür gəlinlər,
Səninsə içində nazın üzülür.

Neçə qəm qarışır, kədər qarışır...
Sevincin süzülür gözündən gəlir.
Körpə balaların ata istəyir...
Yalanlar qol-boyun sözündən gəlir.

Sən sevinc adında kədərsən quzum...
Mələyir içində yetim duyğular.
Axşamlar səninlə ağrılar yatır...
Səninlə oyanır min cür qayğılar.

Bir peşman sevgidən peşman qayıdan...
Hər kəsin nazını bir cür çəkirsən.
Balana bir doğman "çəkil " deyəndə...
İçinə nə qədər əzab əkirsən.

Bu gün ad günündü... adın mübarək!
Sevincin doğulsun təzədən qızım.
Yolların sevinsin, izin sevinsin...
Taleyin göyərsin təzədən quzum!

* * *

Bu necə darıxmaq, bu necə yanmaq,
Bilmirəm hayannan atım özümü.
Min yerə bölünən, sınan ruhumun...
Bəxtəvər anınnan asım özümü...

Bir az könlün alım, bir az dərdini...
Qışdan diri çıxan bu yaz dərdini...
Həmişə ağrıyan nasaz dərdini...
Ovudum, oxşayım, tapım özümü.

Bir saz havasında heyratı deyim...
Ölüb yaşadığım həyatı deyim...
Özüm layla çalım, bayatı deyim...
Alıb öz könlümə yatım özümü.

Çıxım yuxularda, çıxım dağlara...
Dönüb bulaqlara axım dağlara...
Bir ağ duman olub baxım dağlara...
Dağların ətrinə qatım özümü.

Aləməm, ürəyim yanır əzəldən...
Sevən ürəyini danır əzəldən...
Dünyanı fanitək sanır əzəldən...
Gedim bir məzara satım özümü.

## ÖLÜMÜN ÜSTÜNƏ ATILAN OĞLAN...

*Özünü qumbara üstünə atıb əsgərlərini xilas edən şəhid mayor Elnur Əliyevə*

Ölümün üstünə atılan oğlan,
Ölümdən yuxarı qalxdın, bildinmi?
Göyləri endirdin ayağın altda...
Mələktək dünyaya baxdın, bildinmi?

Gördünmü qarışıb haqqın nahaqqa...
Dedinmi sözünü göydəki haqqa?
Bu namərd savaşda, MƏRD davranışla,
Düşməni yandırıb, yaxdın bildinmi?

Neçə can qurtardın, nə qədər həyat...
Qarşında baş əysin bütün kainat!!!
Ey nurdan yoğrulan, nur içində yat!!!
Nurtək ürəklərə axdın, bildinmi?

Ey mənim müqəddəs, igid, ər balam!
Kiçik məzarında ən uca QALAM!
Cismiylə torpağa gömülən OĞLAN,
Ruhunla göylərə çıxdın, bildinmi?!!!

* * *

Göydə bir əlçim bulud yox.
Ürəyim niyə damır?
Mənim ki çırağım sönüb
Bəs könlümdə nə yanır?

Bu evin ki qucağı yox....
Basa məni bağrına...
Hər gün bir az duz basıram
Kəsilməyən ağrıma...

Allah nə çox sevir məni,
Kəsmir bir an payımı.
Hər gün təzə bir dərd ilə
Gəlib döyür qapımı...